# ÜZEYİR HACIBƏYLİ PUBLİSİSTİKASININ CAZİBƏSİ VƏ ŞİRMƏMMƏD HÜSEYNOV FƏDAKARLIĞI



Ramiz Orsər

**"Üzeyir bəy sənəti ilahi sənətdir, Allah vergisidir, tarixin və taleyin bizə böyük töhfəsidir. Müqəddəslik onun həm sənətində, həm də heç vaxt unudulmayan çöhrəsindədir"- Bu sözlər professor Şirməmməd Hüseynova məxsusdur.**

**"Üzeyir bəy öz kökü, idealları, ruhu, mənəviyyatı, fədakarlığı və bənzərsiz istedadi ilə xalqına, təmənnasız xidmət göstərən, Azərbaycanı yer üzünə tanıdan, ilahi sənəti ilə ölməzlik qazanan tarixi şəxsiyyətdir."**

**Bu sözlər də Şirməmməd müəllimindir.**

**"Ürəyimdən keçir ki, nə ola XX əsr Azərbaycan müqəddəsləri siyahısına birinci növbədə Həsən bəy Zərdabinin, Üzeyir bəy Hacıbəyovun və Məhəmməd Əmin Rəsulzadənin adları yazılsın. Nə üçün? Nə əsasla? Əlbəttə, bunu geniş şərh etməyə kiçicik yazıda imkan yoxdur". ("Milli müqəddəslərimiz" yazısından "Müstəqilliyin çətin yolu... Biz hara gedirik?" Azərnəşr, B-1996, s., 108-109.)**

**Bu sözlər də Şirməmməd müəllimindir.**

"Ü.Hacıbəylinin komediyalarındakı mütərəqqi, demokratik fikirlər,köhnə həyatın və geriliyin tənqidi, zülmkar təbəqələrin nümayəndələrinə qarşı satirik gülüş öz başlanğıcını publisistikadan almışdır. O, publisistik yazılarında mütərəqqi ictimai-siyasi fikirləri müdafiə etmişdir.

### *Yazıçının publisistik yazıları*

öz tematik genişliyi, ədəbi mənbələrdən, xususilə Şərq ədəbiyyatından gətirdiyi misallarla hər kəsi heyran qoymuşdur. Ü.Hacıbəyli "Molla Nəsrəddin"in yolunu davam etdirərək hər şeydən yazmış və cəmiyyətdəki eybəcərlikləri qamçılamaqla yanaşı, onlardan qurtuluş yollarını da göstərmişdir".

**Bu sözlər də ustad Şirməmməd müəllimə məxsusdur.**

Şirməmməd Hüseynov Ü.Hacıbəylinin həm həyat-fəaliyyətinə, həm bədii, həm də publisistik yaradıcılığına yaxından və dərindən bələd idi. O bilirdi ki, Ü. Hacıbəylinin yaradıcılığı başdan-ayağa çağdaşlarının yaradıcılığından bir qədər başqa publisistik əda və ovqatla fərqlənir: kinayəli üslub, komizm və sarkazmla aşılanan təhkiyə tərzi bu publisistik nümunələrə əlavə estetik boya artırsa da, onları publisistikada "mənəvi kamillik və əxlaqi axtarışlar"ın vahid realist və radikal-tənqidi konteksləndən kənara çıxarmır, belədə bütöv və tamdır.

Ş.Hüseynov onu da yaxşı bilirdi ki, estetik əlvanlıq üslub müxtəlifliyi, süni konstruksiyadan, stereotip ideyadan uzaqlıq isə onun məqalələrinin və feleyetonlarının hamısı üçün müştərək vəziyyət olaraq qalır. Bu yazılardakı "axtarış effekti" müəllifə yaxın və doğma olan mövzuların materiallarında özünü daha qabarıq şəkildə göstərir.

Üzeyir bəy publisistikasından süzülüb gələn xof nadanları yazıldığı dövrdən sonra da qorxu içinə soxurdu.

Xofdan yaranan qorxu, qorxudan doğan və qaynaqlanan nadanlıq və yarımçıqlıq isə yenə də "meydan sulamaqda" davam edirdi.

### *Əlbəttə,*

Ü.Hacıbəylinin publisistikasında (komediyalarında olduğu kimi) dövrün bütünlükdə publisist-tarixi mənzərəsini, onun nəzəri-ideoloji, təşkilatı iş və fəaliyyət baxımından mündəricəsini yalnız neqativ əyinti və sapıntılarla bərabərləşdirmək və eyni metodoloji səhvə mürəkkəb ideoloji məsələyə, o illərə xas mexaniki münasibətlə yanaşmağa gətirib çıxarırdı.

**Publisistik prosesin obyektiv-elmi dərki, qiymətləndirilməsi, bədii forma, janr, üslub təsnifi və tipologiyası, perspektivli axtarış və meyllərin müəyyənləşdirilməsi və fərqləndirilməsi istiqamətində aparılan işlər də sen-zor "qayçısına" tuş gəlməsinin bariz nümunəsidir ki, Üzeyir Hacıbəylinin nəşrlərdə kənara qoyulmuş, ixtisar və "redaktə" edilmiş əsərləri yenilməz tədqiqatçı Şirməmməd Hüseynovun nəzər-diqqətindən yayına bilməzdi. Budur, yuxusuz gecələrin bəhrəsi və işığı masadadır. İki hissələi kitab.**

Qeyd etmək yerinə düşər ki, bu yazıların bir qismi heç onun əsərlərinin bioqrafiyasında, "Həyat və yaradıcılıq salnaməsi"ndə və ensklopediyasında, belə göstərilməmişdir. Eyni zamanda kitabda ayrıca bölmə kimi Üzeyir bəyin əvvəlki nəşrlərdəki əsərlərində aparılmış ixtisar və hətta "redaktə" edilmiş hissələrinin orjinallarla yoxlanmış tam mətni də verilir.

### *Bu da bir təkzib edilməz həqiqətdir ki,*

Üzeyir Hacıbəyli tarixə iki böyük dövrün-inqilabdan əvvəlki dövrün və sosializm dövrünün klassiki kimi daxil olub. İstər onun musiqi dühasında, istərsə də publisistikasında bədii-mədəni keçmişimizin bütün dövrləri əksini tapıb. İndi nəinki keçmişimizi, musiqimizin və milli publisistikamızın gələcəyini Üzeyir Hacıbəyovsuz təsəvvür etmək mümkün deyildir. O, artıq xalqın milli dühasının bir parçasına, tariximizin özünün müasirinə-əbədi yol yoldaşına cevrilib, onunla birgə addımlayır.

***Bu gün var səsimizlə həm zildə, həm də bəmdə deyirik ki, poeziyada "Xəmsə"nin, dramatur-giyada "Təmsilat"ın rolunu musiqidə Üzeyir Hacıbəylinin operaları oynayıb. Onun publisistikası da M.Ə.Rəsulzadənin, C.Məmmədquluzadənin, Əli bəy Hüseynzadənin publisistik zirvələri sıra-sında öz möhtəşəmliyi və axar-baxarlığı ilə lap uzaqdan da aydın və nəhəng görünür.***

Bu gün sözün həqiqi mənasında xəlqi, milli, bədii bə publisistik şüur, intibah enerjisinin Üzeyir bəy Hacıbəyli miqyaslı nadir və universal simasına əvəz və tay göstərmək mümkünsüzdür. Öz fəaliyyət ehtiraslarının çeşidlik, zənginlik və əlvanlığına görə XX əsrdə heç kəsi Üzeyir bəy Hacı-bəyli ilə yanaşı qoymaq, müqayisələr aparmaq, paralellər axtarmaq mümkün olmadığı kimi: "O olmasın,bu olsun!" - söyləmək də gerçəklik xaricindədir. Fəxr və qürurla səslənirik ki, çoxəsrli bədii-irsimizin inkişafında Ü.Hacıbəylinin milli bədii istedadının, sənətkarın və ictimai xadimin tamami-lə yeni tipini ifadə etməklə, bütöv yaradıcılığı və fəaliyyətilə gələcək nəsillərə örnək idi. Üzeyir Hacıbəylinin sovet dövrü nəşrlərində, senzura "qayçısı"ndan və təhriflərindən həmişə yana-yana danışan Ş.Hüseynov ədibin əsərlərinin yeni nəşrində də bu naqisliklərin qaldığından təəssüflənir və onları aradan qaldırmaq, Üzeyir bəy irsini, onun qələmindən çıxanları olduğu kimi oxucularına çatdırmaq üçün şərəfli bir işin zəhmətini bir vətəndaş qeyrəti ilə öz üzərinə götürür və bu məsul işi iki hissəli kitabın nəşri ilə tamamlayır. Heç şübhəsiz ki, Şirməmməd müəllim məqsəd və məramına qovuşmaq üçün yaşının ahıl çağında bir



çox çətinliklərə və məhrumiyyətlərə sinə gərməli, onları dəf etməli olmuşdur. Təsadüfi deyil ki, bir çox qələm dostları, Azərbaycan aydınları onun bu işini də dönə-dönə təqdir etmişlər ki, biz də dəyərli ziyalılarımızın fikir və mülahizələrinə yeri və zamanı gəldikcə müraciət edəcəyik.

İndi isə aqillərdən birinin dediyi bir söz yadıma düşür: "Cəsarət sərvətdir!"

Mənim fikrimcə, cəsarət həm də şəxsiyyəti formalaşdıran meyarlardan biri, bəlkə də birincisidir.

### *Üzeyir Hacıbəyli fenomenini açmaq,*

onu olduğu kimi görmək və təqdim eləmək bu gün kiməsə çox da asan gəlməsin. Bunun üçün bir sıra qaranlıqları işıqlandırmaq lazım idi. Fəhmin itiliyi, yaddaşın möhkəmliyi və davamlılığı lazım idi...

Mətbuatda, xüsusən də satirik mətbuatda zamanın ictimai dərdlərini, eybəcərliklərini ürək yanğısı və ağrısı ilə kəskin tənqid atəşinə tutan qələm sahiblərinin keçmişdə mürtəce qüvvələr tərəfindən şiddətə məruz qaldıqlarına, necə təqib olunmalarına dair yüzlərlə, bəlkə də daha çox nümunələr gətirmək olar. Buna görə də mətbu orqanlarında gizli imza ilə iştirak edən müəlliflər tez-tez imzalarını dəyişdirməli olurdular. Bəzən gizli imzalar da "faş" olunur, nəticədə müəlliflər gizli imzalarını da "gizlətmək" məcburiyyətində qalmışdır.

**O, müxtəlif zamanlarda, ayrı-ayrı qəzet və jurnallarda "Kəs", "Filankəs", "Behmankəs", "Mizrab", "Musiqiçi", "hamamçı", "Çı" və digər imzaları işlətmişdir. Ü.Hacıbəyli "Həyat", "İr-şad", "Tərəqi", "Həqiqət", "İqbal", "Sovqat", "Yeni iqbal", "Azərbaycan", "Məktəb", "Kommunist" kimi qəzet və jurnallarda çalışdığı zaman bu imzalardan istifadə etmişdir.**

Eyni imzadan bir yox, bəzən bir neçə müəllifin istifadə etdiyi də bizə məlumdur. Hər şeydən əvvəl bu və ya digər imzanı bir şəxsin adına bağlamaq üçün müəllifin nə vaxt, haradan, nədən, hansı janrda yazdığını, üslub, dil, ustalıq və peşəkarlıq səviyyəsini də nəzərə almaq lazım gəlir. Ş.Hüseynov Üzeyir Hacıbəylini təpədən dırnağa həzm və dərk etdiyi üçün, həm də onun yaradıcılığına bələd olduğu üçün nəinki hər hansı bir yazısının nəşrlərdən kənarda qoyulduğunu, hətta bir sözünün ixtisar edildiyini və ya dəyişdirildiyini də duymuş və iki cildlikdə bunları sevgi və dəqiqliklə aradan qaldırmağa çalışmışdır.

**Ümumiyyətlə, Ü.Hacıbəylinin gizli imza seçməkdə də özünəməxsus üsulu, necə deyərlər öz dəsti-xətti olmuşdur. O, gizli imzaları üçün eyni məna verən müxtəlif sözlərdən, eləcə də sinonimlərdən istifadə edərdi. Məsələn: "Filankəs", "Kəs", "Behmankəs", "Bikəs", "Bir nəfər", "Bir şəxs", "Bir müəllim", "Bir adam", "Bir", "İki", "Üç", "Dörd", "Beş" və s. O, məqalə və felyetonlarına başlıq seçməkdə də eyni üsuldan istifadə etmişdir. Məsələn: "Ordan-burdan", "Oyan-buyan", "Oyandan-buyandan", "Dərədən-təpədən" və s. Aydındır ki, göstərilən başlıqlar və imzalar, xüsusən yazıların dil, dil üslub xüsusiyyətləri və Üzeyir Hacıbəylinin yaradıcılığına dərindən bələdlik Ş.Hüseynova bu çətin və şərəfli işi böyük məhəbbət və əvəzsiz tədqiqatçı məharəti ilə həyata keçirməkdə yardımçı olmuşdur.**

Professor Ş. Hüseynovun barlı-bəhərli axtarışları klassik publisistikamızın nadir incilərini gündəmə gətirməklə çağdaş publisitikamızın örnəklərinin yaranmasına ilham və istiqamət vermiş olur. Qədirbilənlər isə yorulmaz tədqiqatçının əməyini təqdir etməklə Şirməmməd Hüseynovun titanik fəaliyyəti qarşısında öz heyranlıqlarını gizlədə bilmirlər.

### *Doğrudan da*

Şirməmməd Hüseynovun ömrünün 9-cu və 10-cu onilliklərindəki fəaliyyəti, axtarışları və gündəmə gətirdikləri fədakarlıq deyil, bəs nədir?!

Millət vəkili, fəlsəfə üzrə fəlsəfə doktoru Fazil Mustafa Şirməmməd Hüseynovun "Azərbaycan" qəzetində parlament hesabatları və şərhlər (noyabr 1918 - aprel 1920)" kitabları ilə bağlı "Şərq" qəzetinin 2016-cı il 15 noyabr tarixli sayında dərc etdirdiyi "Təqaüdünü millətinə xərcləyən kişi..." adlı məqaləsində yazır: "... yeni düşüncəni arıq vücudunda daşıyan dəyərli bir azərbaycanlını görəndə bizi nadanlıqları ilə işimizdən ayıran bir çox əzbərçi və vətənşivənçi məxluqlara ürəyim acıyır. Bu kişi əsl cümhuriyyət tarixini ortaya qoyur, gedib külli miqdarda dövlət vəsaiti hesabına təhrif olunmuş iki cildlik Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası nəşr etdirmir. Bu kişi böyük Məhəmməd Əmin bəyi şüar olaraq təqdim etmir, əməl olaraq, əsər olaraq təqdim edir. Üzeyir bəyi də , Zərdabini də başqa millət fədailərini də eləcə..."

Arxivlərdən qəzet və jurnalları axtarıb tapıb faktları konstatasiya üsulu ilə də tədqiqatçı olmaq, nəyisə əmələ-ərsəyə gətirmək, ad, nüfüz "qazanmaq" olar. Ancaq Şirməmməd Hüseynov kimi mətbuat tədqiqatçısı zirvəsinə qalxmaq hər adama müyəssər olmur. Ona bənzəmək üçün gərək əvvəla, tarixdən yaxşı baş çıxarasan, həm mətnşünas olasan, həm əski əlifbanı biləsən, həm də qəzet və jurnalların nəşr olunduğu dövrün ən xırda detallarına, mikroskop altında görünən həqiqətlərinə də bələd olasan.

(ardı növbəti sayımızda)